**ODLAR YURDU UNİVERSİTETİ**

**Elmi Şurasının 09 sentyabr 2025-ci il tarixli iclasının**

**01 saylı**

**PROTOKOLU**

| | |
|---|---|
| Bakı şəhəri | 09 sentyabr 2025-ci il |
| Elmi Şuranın sədri: | prof. Ə.A.Vəliyev |
| Elmi katib: | dos. S.S.Məmmədzadə |
| İştirak etdilər: | Elmi Şuranın 40 üzvü |

**Gündəlik məsələlər:**

| |
|---|
| 1. Universitetin Elmi Şurasının yeni tərkibinin seçilməsi və fəaliyyət planının təsdiqi. OYU-nun tədris ili üçün iş planının müzakirəsi və təsdiqi. |
| 2. 2024-2025-ci tədris ilinin yaz imtahan sessiyasından qalan akademik borcların ləğvi. |
| 3. 2025-2026-cı tədris ili üçün universitetə bakalavriat, magistratura və doktorantura pilləsinə qəbulun yekunları. |
| 4. Yeni tədris ilinə hazırlığın vəziyyəti (kadr, maddi-texniki baza, elmi və tədris metodiki işlər). |
| 5. "Məktəbəqədər təhsil" ixtisasının proqram akkreditasiyasının qiymətləndirilməsinə dair özünütəhlil hesabatının müzakirəsi və təsdiqi məsələsi |
| 6. Təkliflər qutusunun nəzarət mexanizminin müzakirəsi |
| 7. Cari məsələlər<br>7.1.Hazırlıq fakültəsində təhsil alan xarici ölkə vətəndaşları üçün tədris planının müzakirəsi və təsdiqi məsələsi<br>7.2.Yeni struktur bölmələrin əsasnamələrinin təsdiqi məsələsi<br>7.3. Odlar Yurdu Universiteti Akademik heyətin işə qəbulu haqda təlimatın müzakirəsi və təsdiqi məsələsi. |

**I. Universitetin Elmi Şurasının yeni tərkibinin seçilməsi və fəaliyyət planının təsdiqi. OYU-nun tədris ili üçün fəaliyyət planının müzakirəsi və təsdiqi.**

**Eşidildi:**

Odlar Yurdu Universitetinin Elmi Şurasının sədri prof. Ə.A.Vəliyev Şura üzvlərini salamladı və yeni tədris ilinin başlaması münasibəti ilə Şura üzvlərini təbrik etdi. Sonra o, Universitet Elmi Şurasının yeni tərkibinin və fəaliyyət planının müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Prof. Ə.A.Vəliyev öz çıxışında şura üzvlərini Universitet Elmi Şurasının yeni tədris ili üçün hazırlanmış fəaliyyət planı ilə tanış etdi. Universitet Elmi Şurasına yeni üzv seçilmiş əməkdaşı - İngilis dilində tədrisin təşkili fakültəsinə təyin olunmuş dekan p.ü.f.d. Əliyev Aydın Arif oğlunu Şura üzvlərinə təqdim etdi. O, dosent Məmmədzadə Sevinc Səlim qızının Elmi Şuranın katibi kimi qalmasını təklif etdi. Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor prof. F.S.Məmmədovun sədr müavini seçilməsini təklif etdi. Şura üzvlərini bu məsələ ilə bağlı müzakirə etməyə və müvafiq təkliflər təqdim etməyə dəvət etdi. Müzakirələr və təkliflərdən sonra qərar qəbul edildi. Eyni zamanda, prof. Ə.A.Vəliyev OYU-nun tədris ili üçün fəaliyyət planı ilə Şura üzvlərini tanış etdi və onun təsdiq edilməsini təklif etdi.

Şura üzvləri müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**

1. Odlar Yurdu Universitetinin rektoru Elmi Şuranın Sədri seçilsin.

2. Prof. F.S. Məmmədov Elmi Şura sədrinin müavini seçilsin.
3. Dos. Sevinc Səlim qızı Məmmədzadə Elmi Şuranın katibi seçilsin.
4. OYU-nun tədris ili üçün fəaliyyət planı təsdiq edilsin.

5. Elmi Şuranın yeni iş planı aşağıdakı kimi təsdiq edilsin.

| **İcra vaxtı** | **Gündəlikdə duran məsələlər** | **Məsul icraçılar** |
|---|---|---|
| **Sentyabr 2025** | **1.** Universitetin Elmi Şurasının yeni tərkibinin seçilməsi və fəaliyyət planının təsdiqi. | Rektor |
| | **2.** 2024-2025-ci tədris ilinin yaz imtahan sessiyasından qalan akademik borcların ləğvinə hazırlığın vəziyyəti. | Aparat rəhbəri |
| | **3.** 2025-2026-cı tədris ili üçün universitetə bakalavr, magistr və doktorantura pilləsinə qəbulun yekunları barədə. | Tədris işləri üzrə prorektor,<br>Doktorantura, Magistratura və MBA departamenti |
| | **4.** Yeni tədris ilinə hazırlığın vəziyyəti (kadr, maddi-texniki baza, elmi-metodiki işlər). | Tədris işləri üzrə prorektor,<br>Tədris və metodiki işlər departamenti |
| | **5.** Müxtəlif məsələlər. | |
| **Oktyabr 2025** | **1.** Universitetin nizam-intizam qaydaları haqqında. | Tədris işləri üzrə prorektor |
| | **2.** Fakültə əməkdaşları arasında əmək intizamının vəziyyəti və tələbələrin dərsə davamiyyəti haqqında. | Dekanlar |
| | **3.** Doktorantura və magistraturada dissertasiya mövzularının elmin aktual problemlərinə həsr olunmasının təmin edilməsi. | Doktorantura, Magistratura və MBA departamenti |
| | **4.** Akademik borcların ləğv olunması nəticələri haqqında | Dekanlar |

| | | |
|---|---|---|
| | **5.** Müxtəlif məsələlər. | |
| **Noyabr 2025** | **1.** Universitetdə tədris prosesinin gedişi və qarşıda duran vəzifələr barədə. | Tədris işləri üzrə prorektor |
| | **2.** Tələbə Elmi Cəmiyyətin fəaliyyəti barədə. | TEC-in sədri |
| | **3.** Kafedralar üzrə müəllimlərin elmi fəaliyyəti, elmi seminarlar və elmi tədqiqat işlərinin müzakirəsi. | Kafedra müdirləri |
| | **4.** Müxtəlif məsələlər | |
| **Dekabr 2025** | **1.** Magistr və doktorluq dissertasiyalarının mövzularının və elmi rəhbərlərin təsdiqi barədə. | Doktorantura, Magistratura və MBA departamenti |
| | **2.** Universitetin reytinqinin qaldırılması məqsədilə “Web of Science”, “Scopus” və digər reytinqli elmi platformalarda çap edilən məqalələrin sayının artırılmasının təmin edilməsi. | Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor, |
| | **3.** Payız semestrinin imtahan sessiyasına hazırlığın müzakirəsi. | Aparat rəhbəri Dekanlıqlar və Kafedralar |
| | **4.** Müxtəlif məsələlər | |

| | | |
|---|---|---|
| **Yanvar 2026** | 1. Pedaqoji və istehsalat təcrübəsinə hazırlığın vəziyyəti barədə. | Kafedra müdirləri |
| | 2. 2025-ci ildə elmi-tədqiqat fəaliyyətinin yekunu üzrə illik hesabat. | Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor |
| | 3. 2026-cı il üzrə tədris-metodiki işlərin müəyyənləşdirilməsi | Tədris işləri üzrə prorektor, Kafedralar |
| | 4. Fakültələrin, Magistratura və Doktorantura şöbəsinin, kafedraların tədris ilinin I yarımili üzrə hesabatının Elmi Şurada təqdim edilməsi | Dekanlıqlar, Doktorantura, Magistratura və MBA departamenti<br><br>Kafedralar |
| | 5. Müxtəlif məsələlər | |
| **Fevral 2026** | **1.** Qış imtahan sessiyasının yekunu barədə | Aparat rəhbəri, Dekanlıqlar |
| | **2.** Növbəti dərs semestrinə hazırlıq barədə | Tədris işləri üzrə prorektor, kafedralar, dekanlıqlar |
| | **3.** Akademik borcların ödənilməsinin təşkili barədə | Dekanlıqlar |
| | **4.** İnstitut, mərkəz və labaratoriyaların işinin təkmilləşdirilməsi üçün maddi-texniki bazanın gücləndilrilməsi. | Təsərrüfat və mülki müdafiə işləri üzrə prorektor |
| | **5.** Müxtəlif məsələlər | |
| | **1.** Universitetin doktorant, magistr və müəllimlərinin beynəlxalq və respublika elmi konfranslarda iştirakının təmin edilməsi. | Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor |

| | | |
|---|---|---|
| **Mart 2026** | **2.** Məqalələri “Web of Science” bazasına daxil olan beynəlxalq elmi konfransın təşkilində iştirak etmək. | Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor |
| | **3.** Müxtəlif məsələlər | |
| **Aprel 2026** | **1.** Universitetə tələbə və magistr qəbulu üzrə peşəyönümlü işin aparılması | Dekanlar<br>Kafedra müdirləri |
| | **2.** Yerli və beynəlxalq tədqiqat proqramlarında iştirak etmək üçün müraciət etmək. | Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor |
| | **3.** Müxtəlif məsələlər | |
| **May 2026** | **1.** Doktorantların doktorluq imtahanlarının təşkil olunması | Doktorantura, Magistratura və MBA departamenti |
| | **2.** Stimullaşdırma məqsədilə müəllimlərin reytinqinin müəyyən edilməsi. | Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor |
| | **3.** Yaz semestrinin imtahan sessiyasına hazırlığın müzakirəsi. | Dekanlıqlar və Kafedralar |
| | **4.** Müxtəlif məsələlər | |
| **İyun 2026** | **1.** 2025-2026 –cı tədris ili üzrə kafedraların, fakültələrin, magistratura və doktorantura şöbələri və digər struktur bölmələrin hesabatlarının müzakirəsi və təsdiqi. | Struktur bölmələr |
| | **2.** Tələbə elmi cəmiyyətinin fəaliyyəti barədə | T.E.C.-in sədri |
| | **3.** Tələbə həmkarlar və tələbə gənclər təşkilatının fəaliyyəti barədə | T.G.T. və T.H.T.-in sədrləri |

| | | |
|---|---|---|
| | **4.** Müxtəlif məsələlər | |
| **İyul 2026** | **1.** Yaz imtahan sessiyasının yekunun müzakirəsi və akademik borcların yaranması səbəblərinin araşdırılması | Aparat rəhbəri, Magistratura şöbəsi |
| | **2.** Pedaqoji və istehsalat təcrübəsinin yekunları barədə | Kafedralar |
| | **3.** 2025-2026 –cı tədris ilinin yekunu və qarşıda duran məsələlər | Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor<br>Tədris işləri üzrə prorektor,<br>Dekanlıqlar,<br>Kafedra müdirləri |
| | **4.** Yeni tədris ili üçün fəaliyyət planının müzakirəsi | Şura üzvləri |
| | **5.** Müxtəlif məsələlər | |

**6.** Universitetin Elmi Şurasının yeni tərkibi təsdiq edilsin

| № | Soyadı, adı, atasının adı | Elmi adı | Vəzifəsi |
|---|---|---|---|
| 1 | Vəliyev Əhməd Abdulkərim oğlu | Prof. | Rektor |
| 2 | Vəliyev Samir Əhməd oğlu | Prof. | OYU İdarəetmə Şurasının sədri |
| 3 | Vəliyev Munir Əhməd oğlu | Prof. | I prorektor |
| 4 | Məmmədov Fəxrəddin Sadiq oğlu | Prof. | Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor |
| 5 | Qafarov Qabil Alxan oğlu | Dos. | Tədris işləri üzrə prorektor |
| 6 | Məmmədov Elşad Yaqub oğlu | Prof. | Strateji inkişaf və beynəlxalq əlaqələr üzrə prorektor |
| 7 | Vəliyev Məzahir Abdulkərim oğlu | Prof. | Təsərrüfat və mülki müdafiə işləri üzrə prorektor |
| 8 | Həmidov Təriqəddin Siracəddin oğlu | | Ümumi işlər üzrə prorektor |
| 9 | Qəmbərov Heydər Dəmir oğlu | Prof. | Aparat rəhbəri |
| 10 | Vəliyev Mübariz Balaəli oğlu | Prof. | Rektorun müşaviri |

| | | | |
|---|---|---|---|
| 11 | Həsənov Füzuli Abbas oğlu | Dos. | Beynəlxalq əlaqələr üzrə Rektorun müşaviri |
| 12 | Məmmədzadə Sevinc Səlim qızı | Dos. | Elmi Şuranın Katibi |
| 13 | Vəliyeva Nərminə Səməd qızı | Dos. | Doktorantura, Magistratura və MBA departamentinin müdiri |
| 14 | Rəsulov Rüstəm Kamal öğlu | Prof. | Filologiya və humanitar fənlər kafedrasının müdiri |
| 15 | Bilalov Bilal Telman oğlu | Prof. | Riyaziyyat və rəqəmsal texnologiyalar kafedrasının müdiri |
| 16 | Cabbarov Rəşid Vəkil oğlu | Prof. | Psixologiya, pedaqogika və sosial fənlər kafedrasının müdiri |
| 17 | Əlirzayev Əli Qənbərəli oğlu | Prof. | İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı |
| 18 | Məmmədov Ramazan Mustafa oğlu | Prof. | Biologiya və ekologiya kafedrasının müdiri |
| 19 | Atayev Soltan Həmid oğlu | Prof. | Dizayn kafedrasının müdiri |
| 20 | İsmayılov Vilayət İsmayıl oğlu | Prof. | OYK üzrə müşavir |
| 21 | Vəliyeva Vəfa Əhməd qızı | | Odlar Yurdu Kollecinin direktoru |
| 22 | Qurbanova Aynurə Nəriman qızı | Dos. | Tərcümə və dil mərkəzinin rəhbəri |
| 23 | Rəhimov İdrak Umbay oğlu | Dos. | Tədris və metodiki işlər departamentinin rəhbəri |
| 24 | Abdurəhmanova Səadət Xalid qızı | Dos. | Dillər kafedrasının müdiri |
| 25 | Məhərrəmova Sevinc Telman qızı | Dos. | Təbiət və texnologiya fakültəsinin dekanı |
| 26 | Muxtarzadə Nuridə Zabit qızı | Dos. | Humanitar, təhsil və dillər fakültəsinin dekanı |
| 27 | Əliyev Aydın Arif oğlu | p.ü.f.d. | İngilis dilində tədrisin təşkili fakültəsinin dekanı |
| 28 | Musayev Nizami Xıdır oğlu | Dos. | Abituriyent- hazırlıq və məsləhət mərkəzinin rəhbəri |
| 29 | Nəcəfov Elsevər Əsgər oğlu | Dos. | Hüquq departamentinin rəhbəri |
| 30 | Salehova Humay Tofiq qızı | | İnsan resursları departamentinin rəhbəri |
| 31 | Feyzullayev Babək Xasay oğlu | Dos. | İqtisadiyyat və idarəetmə fakültəsinin dekan müavini |

| | | | |
|---|---|---|---|
| 32 | Əliyeva Səbinə Yusif qızı | Dos. | Beynəlxalq münasibətlər və turizm kafedrasının müdir müavini |
| 33 | Quliyev Məzahim Məmmədağa oğlu | t.ü.f.d. | Riyaziyyat və rəqəmsal texnologiyalar kafedrasının müdir müavini |
| 34 | Əliyeva Cəmilə Mais qızı | k.ü.f.d. | Riyaziyyat və rəqəmsal texnologiyalar kafedrasının müdir müavini |
| 35 | İbrahimova Nigar Bağban qızı | | Keyfiyyət təminatı və Akkreditasiya işləri departamentinin rəhbəri |
| 36 | Əzimzadə Aslan Cavid oğlu | | Strateji inkişaf və karyera departamentinin rəhbəri |
| 37 | Kasimov Elxan Emil oğlu | | İnformasiya və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri |
| 38 | Qasımova Fidan Elxan qızı | | Xarici tələbələrlə iş departamentinin rəhbəri |
| 39 | Tağıyeva Xatirə Nəbi qızı | | Yaradıcılıq və mədəni tədbirlər departamentinin rəhbəri |
| 40 | Kazımov Ramin Əlyar oğlu | | Riyaziyyat və rəqəmsal texnologiyalar kafedrasının koordinatoru |
| 41 | Əhmədov İnşallah Əhməd oğlu | | Tələbə Gənclər Təşkilatıınn (TGT) sədri |
| 42 | Qurbanlı Həsən Şamil oğlu | | Tələbə Həmkarlar Təşkilatının (THT) sədri |
| 43 | Məmmədova Ayna Valeh qızı | | Tələbə Elmi Cəmiyyətinin (TEC) sədri |

**II. 2024-2025-ci tədris ilinin yaz imtahan sessiyasından qalan akademik borcların ləğvi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

İkinci məsələ ilə bağlı Aparat rəhbəri prof. H.D.Qəmbərov çıxış etdi. O, çıxışında 2024-2025-ci tədris ilinin yaz imtahan sessiyasından qalan akademik borcların ləğvi barədə sentyabr ayı üçün statistik göstəricilər ilə şura üzvlərini tanış etdi.

**Çıxış etdi:**

Prof. Ə.A.Vəliyev çıxış edərək kəsri qalan tələbələrin q/kafi qiymət alma səbəblərinin araşdırılması tapşırığını verdi. Bu məsələ ilə bağlı növbəti iclaslarda yenidən müzakirə aparılmasını təklif etdi. Bu məsələ ilə bağlı bütün kafedraların məsuliyyət daşımalı olduqlarını, eyni zamanda imtahan formalarında dəyişikliklər edilməli olduğunu bildirdi.

**Qərar:**

Prof. Ə.A.Vəliyevin tapşırığı nəzərə alnsın.

**III. 2025-2026-cı tədris ili üçün universitetə bakalavriat, magistratura və doktorantura pilləsinə qəbulun yekunları.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Bakalavr pilləsinə qəbulla bağlı Tədris işləri üzrə prorektor dos. Q.A. Qafarov çıxış etdi. O, çıxış edərək bildirdi ki, bu tədris ilində universitetə ümumi 1025 qəbulumuz var. Bu çox yaxşı göstəricidir. 100% planın dolması deməkdir.

Qarşımızda duran əsas məsələlərdən biri gələcəkdə bu günün əmək bazarına uyğun ixtisasların seçilməsi durur. Bazarın tələbi hər il dəyişir, bu baxımdan bu məsələ ilə bağlı müzakirə aparmalıyıq. Qəbul olan tələbələrdən 50 nəfər qeydiyyatdan keçməmiş, bunun araşdırmasını aparmışıq. Belə ki, 95 % plan yerinin dolması ilə bir çox universitetlərdən öndəyik, bu da çox uğurlu bir göstəricidir.

Magistratura və doktorantura pilləsində isə vəziyyət ürəkaçan deyil. Doktorantura pilləsi üzrə iki ixtisas – "Filologiya" və "Dizayn" ixtisası boş qalmışdır. Həmçinin, magistratura üzrə də "Filologiya" ixtisasımız boş qalmışdır. Bu məsələdə müvafiq kafedra böyük məsuliyyət daşıyır. Nəzərə alsaq ki, bakalavr üzrə 40 qəbuldan 37 məzun buraxılışımız olmuşdur, lakin, onlardan bir nəfər belə magistraturaya sənəd verməmişdir. Digər kafedraların ixtisasları üzrə isə qəbullarımız vardır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bakalavr üzrə məzun olan tələbələrimiz bizim universiteti seçmirlər. Bu boşluq danılmazdır. Orta ixtisasdan abituriyentlər bizim universiteti seçdikləri halda, bakalavr məzunları magistratura təhsili üçün bizim universiteti seçmirlər.

Eyni zamanda qeyd etmək lazımdır ki, bu il ixtisaslarımıza minimum keçid balı artmışdır, bu da öz növbəsində universitetimizin reytinqinin artması deməkdir. Təklif edərdim gələcəkdə magistratura üzrə "Sosial iş" ixtisası üzrə qəbul yeri alaq, çünki, çox perspektivli ixtisasdır, belə ki, son illərin statistik göstəricilərinə görə bu ixtisas digər universitetlərdə tam dolmuşdur.

**Çıxış etdi:**
Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor prof. F.S. Məmmədov çıxış edərək bildirdi ki, yeni tədris ilində doktorantura pilləsinə 9 nəfər qəbul olmuşdur. Onlardan 2-si xarici vətəndaşdır. Bir nəfər isə öz magistr tələbəmizdir, bu çox müsbət haldır. Qeyd etmək lazımdır ki, qəbul olan doktorantlar çox savadlı və dünya görüşlüdürlər. Təklif edirəm ki, magistr tələbələrimiz arasında seçim edək və onlar arasında savadlı kadrları doktoranturaya yönləndirək.
**Qərar:**
1. Dos. Q.Qafarovun məruzəsi qəbul edilsin.
2. prof. F.S. Məmmədov təklifi nəzərə alınsın.

**IV. Yeni tədris ilinə hazırlığın vəziyyəti (kadr, maddi-texniki baza, elmi və tədris metodiki işlər)**

**Çıxış etdi:**
Prof. Ə.A.Vəliyev məsələ ilə bağlı bildirdi ki, yeni tədris ilinə hazırlıq bir qədər dəyişməlidir. Bu işdə tək dekanlar yox, bütün struktur bölmə rəhbərləri öz vəzifələrini və hüquqlarını bilməli və hazırlamalıdırlar. Belə ki, tezliklə universitet üzrə hər bir çalışan öz yarımillik və illik fəaliyyət planını hazırlamalı və bu plana uyğun fəaliyyət göstərməlidir. Fəaliyyət planının yoxlanılmasına nəzarəti Strateji inkişaf və karyera departamentinin rəhbərinə həvalə edirəm.Universitetin Strateji inkişaf və beynəlxalq əlaqələr üzrə prorektoru prof. E.Y.Məmmədov bu əmrin icrasına nəzarəti təmin etsin. İngilis sektorunda qruplar və tələbələrin siyahısı, eləcə də həmin qruplarda cədvəllərin qurulması məsələsi İngilis dilində tədrisin təşkili fakültəsinin dekanına həvalə edilir.
**Qərar:**
Prof. Ə.A.Vəliyevin tapşırığına əməl edilsin.

**V. “Məktəbəqədər təhsil” ixtisasının proqram akkreditasiyasının qiymətləndirilməsinə dair özünütəhlil hesabatının müzakirəsi və təsdiqi məsələsi**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
Prof. F.Məmmədov çıxış edərək bildirdi ki, “Məktəbəqədər təhsil” ixtisasının proqram akkreditasiyasının qiymətləndirilməsinə dair özünütəhlil hesabatının hazırlanması üçün Elmi Şuranın 10.07.2025-ci il 10 saylı iclas qərarı ilə Təşkilat Komissiyası yaradılmışdır. Prof. F.Məmmədov Təşkilat Komissiyasının hazırladığı özünütəhlil hesabatı ilə Şura üzvlərini tanış etdikdən sonra müzakirə edilərək təsdiq edilməsini təklif etdi.
Müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**

1. “Məktəbəqədər təhsil” ixtisasının proqram akkreditasiyasının qiymətləndirilməsinə dair özünütəhlil hesabatı təsdiq edilsin.

2.Özünütəhlil hesabatı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilsin.

**VI. Təkliflər qutusunun nəzarət mexanizminin müzakirəsi**

**Eşidildi:**

**Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.**

**Çıxış etdi:**

Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor prof. F.S.Məmmədov şura üzvlərini təkliflər qutusunun nəzarət mexanizmi ilə tanış etdikdən sonra müzakirə edilməsini təklif etdi.

Şura üzvləri müzakirələrdən sonra qərar verir.

**Qərar:**

Təkliflər qutusunun nəzarət mexanizmi qəbul edilsin.

**VII. Cari məsələlər**

**Məsələ 1: Hazırlıq fakültəsində təhsil alan xarici ölkə vətəndaşları üçün tədris planının müzakirəsi və təsdiqi məsələsi**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Xarici tələbələrlə iş departamentinin rəhbəri F.E. Qasımova çıxış edərək Hazırlıq fakültəsində təhsil alan xarici ölkə vətəndaşları üçün tədris planı barədə məlumat verərək onun müzakirə edilməsini təklif etdi.

Müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**

Hazırlıq fakültəsində təhsil alan xarici ölkə vətəndaşları üçün tədris planı təsdiq edilsin.

**Məsələ 2: Yeni struktur bölmələrin əsasnamələrinin təsdiqi məsələsi**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdilər:**

OYU strukturu daxilində yeni yaradılmış şöbə və departamentlərin rəhbərləri çıxış edərək Şura üzvlərini srtuktur bölmələrin əsasnamələri ilə tanış etdilər. Müzakirə və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**

Yeni yaradılmış struktur bölmələrin əsasnamələri təsdiq edilsin.

**Məsələ 3: Odlar Yurdu Universiteti Akademik heyətin işə qəbulu haqda təlimatın müzakirəsi və təsdiqi məsələsi.**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**
Prof. Ə.A.Vəliyev çıxış edərək bildirdi ki, Odlar Yurdu Universitetində müəllimlərin işə qəbul prosesini vahid, şəffaf və mərhələli qaydada həyata keçirmək, kadr seçiminin obyektivliyini, ədalətliliyini təmin etmək üçün təlimat hazırlanmışdır. Təlimatın müddəaları və işə qabul qaydaları haqda Elmi Şura üzvləri müzakirə etdikdən və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**
Odlar Yurdu Universiteti Akademik heyətin işə qəbulu haqda təlimat qəbul edilsin.

İclasın sonunda Elmi Şuranın sədri prof. Ə.A.Vəliyev Şura üzvlərinə və iştiraklarına görə təşəkkürünü bildirərək yeni tədris ilində onlara uğurlar arzuladı və iclasın bitdiyini elan etdi.

**Sədr** **prof. Ə.A.Vəliyev**

**Elmi katib** **dos. S.S.Məmmədzadə**